**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN-UKRAYNA HUMANİTAR ƏLAQƏLƏRİ

İxtisas: 5901.01-Beynəlxalq münasibətlər

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Aygül Fikrət qızı Əfəndiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2026**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Diplomatiya və xarici siyasət kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Tarix elmləri doktoru, professor
**Habil Nurkişi oğlu Məmmədov**

Rəsmi opponentlər: Siyasi elmlər doktoru
**Elnur Bəybala oğlu Hacalıyev**

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Nigar Fikrət qızı Qəhramanova**

Siyasi elmlər üzrə fəlsəfə doktoru
**Sənubər Adışirin qızı Babaşova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:
Akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi:
siyasi elmlər doktoru, professor
**Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri:
siyasi elmlər doktoru, professor
**Elçin İldırım oğlu Əhmədov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dünya siyasətinin aparıcı sahəsi olan humanitar əməkdaşlıq dövlətlərin beynəlxalq fəaliyyətində sanballı yer tutur. Hazırda xalqlar və dövlətlər arasında humanitar əlaqələrin rolu daha da güclənməkdədir. Yeni beynəlxalq şəraitdə dövlətlər arasında humanitar əlaqələrin həyata keçirilməsinin bir sıra köklü səbəbləri mövcuddur. Beynəlxalq humanitar əməkdaşlıq sülhün qorunmasına, daha yüksək səviyyələrdə ikitərəfli əlaqələrin inkişafına və xalqların yüksək rifahının təmininə yönələn təşəbbüslərin genişlənməsinə zəmin yaradır.

Dövlətlərin xarici siyasətində humanitar fəaliyyətin həyata keçirilməsi, əsasən, iki məqsəd ətrafında formalaşır. Birincisi, müasir dünya siyasətinə faydalı və güclü təsir göstərərək beynəlxalq aləmə səmərəli nüfuzetmək və qlobal əməkdaşlıqda dərindən iştirakdır. İkincisi, beynəlxalq humanitar əməkdaşlıqda iştirak etməklə dövlət qloballaşma və rəqabət şəraitində özünün inkişafı və modernləşməsinə nail olmağa çalışır.

XX əsrin sonunda baş verən yeni geosiyasi reallıqlar fonunda SSRİ-nin dağılmasından sonra müttəfiq respublikalar öz müstəqilliklərini yenidən bərpa etdilər. Müstəqil dövlət kimi Azərbaycan və Ukrayna vaxtılə mövcud olmuş diplomatik münasibətləri bərpa etməklə əlaqələrin gələcək əsasını qoydular. Ölkələr arasında tarixi əlaqələrin qorunub saxlanması və onun keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi Ümummilli Lider Heydər Əliyevin, həmçinin bu siyasətin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük xidmətləridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlətimizin xarici siyasətində xüsusi önəm kəsb edən humanitar fəaliyyətə dair elmi araşdırmaların aparılmasının vacibliyini daima vurğulayır. Yeni tarixi beynəlxalq şəraitdə Azərbaycanın xarici siyasətində humanitar əməkdaşlıq məsələləri artıq öz aktuallığı ilə seçilir. Nəticədə bu sahədə sistemli, ardıcıl və yaradıcı elmi-nəzəri tədqiqatlara tələbat xeyli artmaqdadır. Müasir dövrdə Azərbaycan

Ukrayna arasında humanitar əlaqələr mövzusunda dissertasiyanın yazılması yetərli elmi-əməli əsaslara malikdir. Mövzunun elmi araşdırılma zərurətini əsaslandıran birsıra köklü amilləri aşağıdakı müddəalar-tezislər şəklində belə ifadə etmək olar:

*Birincisi, yeni dünya nizami və dövlətlərin yeni xarici siyasət strategiyası:* Soyuq müharibə"dən sonra beynəlxalq münasibətlər sistemində yeni mərhələnin formalaşması tezisi bir çox tədqiqatçılar tərəfindən tez-tez səsləndirilir. Müasir dövrdə dünyada gedən çoxvektorlu siyasi proseslər də beynəlxalq münasibətlər sisteminin köklü şəkildə dəyişməkdə olduğunu göstərir. İkiqütblü dünya sisteminin dağılmasından sonra beynəlxalq təhlükəsizlik sistemi və dövlətlərin xarici təhlükəsizlik siyasəti yenidən formalaşır.

Hazırda siyasi prosesləri öncədən proqnozlaşdırmaq və müvafiq xarici siyasət strategiyası müəyyənləşdirmək xeyli mürəkkəbləşir. Bu kimi məsələlər fonunda qlobal tarixi-bəşəri çağırışlar dövlətlərin xarici siyasətində humanitar əməkdaşlığa diqqətin artırılmasını labüd edir. Dövətlərarası humanitar əməkdaşlıq çoxşaxəli və perspektivli fəaliyyət sahəsi olmaqla yanaşı ciddi strateji-konseptual göstəricilərə malikdir. Sözsüz ki, bu kimi amillər beynəlxalq münasibətlərin müasir mərhələsində dövlətlərarası humanitar əməkdaşlıq siyasətinin elmi cəhətdən işlənib hazırlanması zərurətini şərtləndirir.

*İkincisi, elmi ədəbiyyatda dövlətlərarası "humanitar əməkdaşlıq" anlayışına dair konseptual baxış problemləri:* Dəyişməkdə və yenilənməkdə olan müasir beynəlxalq münasibətlərdə yeni termin olan "humanitar əməkdaşlığa" dair yekdil fikir formalaşmamışdır. Müasir siyasi proseslər bu fenomenal dövlətlərarası fəaliyyət sahəsinin anlayışına və mahiyyətinə bir sıra önəmli çalarlar gətirmişdir. Dövlətlərin xarici siyasətində humanitar istiqamət beynəlxalq münasibətlərin yetərincə öyrənilməyən sahələrindəndir.

Dövlətlərarası humanitar əlaqələrin zəngin tarixə, müsbət ənənə-təcrübələrə və çoxşaxəli fəaliyyət sahələrinə sahib olması bu istiqamətdə müxtəlif yanaşma və fikirlərin ortaya çıxmasına rəvac vermişdir. Humanitar əməkdaşlığa dair bu cür müxtəlif baxışlar, o

cümlədən Qərb və Sovet-Rusiya məktəblərində məsələyə dair tamamilə fərqli yanaşmalar müasir humanitar əməkdaşlığın tədqiqinin önəmini bir daha qabardır. Nəticədə dövlətlərarası humanitar əməkdaşlıq anlayışına dair elmi-nəzəri yanaşmaların və siyasi təfsirlərin dərindən öyrənilməsi istiqamətində elmi tədqiqatlara tələbat yaranır.

*Üçüncüsü, inteqrasiya və qloballaşma prosesləri fonunda humanitar çağırışlar:* Müasir inteqrasiya və qloballaşma şəraitində dünyada sivilizasiyalar arasında münasibətlərin yeni formaları yaranır və fərqli düşüncə mədəniyyəti formalaşır. Bu amillər beynəlxalq münasibətlər sisteminə, o cümlədən dövlətlərin daxili və xarici siyasətinin formalaşmasına da güclü təsir göstərir. Nəticədə müasir dövrün yeni tələblərinin və problemlərinin müzakirəsi istiqamətində beynəlxalq səviyyədə humanitar çağırışlar aktuallaşır.

Bu zərurəti nəzərə alan rəsmi Bakı və Kiyev vaxtaşırı dövlətlərarası humanitar əməkdaşlığın gündəliyini müəyyənləşdirən müxtəlif təşəbbüslərlə çıxış edirlər. Hər iki xalqın nümayəndələri tarixən sivil, mədəni yaşam və düşüncə tərzi ilə digər millətlərin mənəvi dəyərlər sisteminə dözümlülük nümayiş etdirmişdilər. Azərbaycan və Ukrayna yeni şəraitdə daima sivilizasiyalararası dialoqun və ümumbəşəri mədəni inteqrasiyanın tərəfdarı kimi çıxış edirlər. Müasr inteqrasiya və qloballaşma prosesləri xalqları milli özünəməxsusluğunu qorumaqla yanaşı, fərqli mədəniyyətlərlə yaxından təmasda olmağı və humanitar istiqamətli bütün sahələrdə dövlətlərin qarşılıqlı əməkdaşlığını zəruri edir. Fikrimizcə, belə qlobal məsələnin tədqiqata cəlb olunması və öyrənilməsi müasir siyasətşünaslığımızda mühüm əhəmiyyətə malikdir.

*Dördüncüsü, Azərbaycan və Ukrayna arasında tarixi-etnik yaxınlıq və ortaq tarix faktoru:* Fərqli regionlarda yerləşmələrinə baxmayaraq, Azərbaycan və Ukrayna xalqları arasında əsrlər boyu formalaşan dostluq ənənələri və əlaqələr bu gün də hər iki cəmiyyət üçün faydalı məqsədlərə xidmət edir. Azərbaycanın postsovet məkanında qeyri-müsəlman dövlətlər içində Ukrayna ilə münasibətləri bu baxımdan unikaldır və özünəməxsus göstəricilərə sahibdir. Müəyyən dərəcədə tarixi-etnik yaxınlıq və çoxəsrlik

humanitar əməkdaşlıq XX əsrin əvvəllərində yeni yaranmış hər iki dövlətin qısa zaman kəsimində rəsmi münasibətlərinin formalaşmasını şərtləndirdi. Fikrimizcə, bu kimi göstəricilər müasir dövrdə hər iki dövlət arasında münasibətlərin daha uğurlu qurulması və onun davamlı inkişafında xüsusi rola sahibdir. Beləliklə, müasir dövrdə Azərbaycan Ukrayna arasında humanitar münasibətlərin dinamik inkişafı məsələlərinə dair tədqiqatların aparılması zərurəti yaranmış oldu.

*Beşincisi, rəsmi Bakı və Kiyevin regional və beynəlxalq səviyyəli humanitar əməkdaşlıq mexanizmlərində birgə iştirakı zərurəti:* Azərbaycan və Ukrayna dövlət müstəqilliklərini qazandıqdan sonra onu möhkəmləndirmək və inkişaf etdirmək kimi çox vacib problemlə qarşılaşmışdılar. Bu kimi problemlərin həlli isə möhkəm birlik və güclü əməkdaşlıqla yanaşı, milli maraqlara cavab verən strateji səviyyəli münasibətlərin qurulmasından keçirdi. Məhz, iki dövlət arasında belə qətiyyətli və düşünülmüş xarici siyasətin nəticəsi olaraq münasibətlərimiz srateji tərəfdaşlıq müstəvisində inkişaf etməkdədir.

Hazırda müasir dünya siyasətində yaşanan xeyli təhlükəli proseslər, o cümlədən beynəlxalq hüququn prinsiplərinin kobud şəkildə pozulması halı bəşiriyyəti ciddi rahatsız edir. Yeni dünya düzənin formalaşdığı indiki mərhələdə dövlətlər beynəlxalq səviyyədə xarici siyasət prioritetlərini, eləcə də humanitar əməkdaşlıq sahəsində fəaliyyət istiqamətlərini yenidən formalaşdırırlar. Dövlətlərin sadalanan təhlükələrə qarşı birgə müdafiə zərurəti onların bir sıra regional və beynəlxalq əməkdaşlıq mexanizmlərindən yararlanmasını şərtləndirir. Belə bir durum isə müvafiq elmi tədqiqatlara tələbat yaradır.

Azərbaycan Ukrayna arasında humanitar əlaqələrinin tarixiliyi və əhatəliyi məsələnin hərtərəfli elmi tədqiqini zəruri edir. Digər tərəfdən də, elmi ədəbiyyatda dövlətlərarası humanitar əməkdaşlıq anlayışına dair konseptual baxış problemi nəzəri tədqiqatlarla bağlı durumun aydınlaşdırılmasını və müvafiq ümumiləşdirmələr aparılmasını tələb edir. Müasir dövrdə Azərbaycan-Ukrayna humanitar əlaqələri indiyədək sistemli şəkildə və ayrıca tədqiq

edilməmişdir. Bununla belə, iki dövlət arasında münasibətlərin bir sıra sahələri üzrə əsasən, Azərbaycan və Ukraynada, qismən isə Rusiya və Qərbdə müəyyən araşdırmalar aparılmışdır.

Mövzunun öyrənilmə səviyyəsi araşdırılarkən ilk növbədə müasir dövrdə dövlətlərarası humanitar əməkdaşlığa dair nəzəri araşdırmalara qısa nəzər salmaq, daha sonra Azərbaycan-Ukrayna humanitar əlaqələrinin praktiki aspektlərinə dair araşdırmaları təhlil etmək lazımdır. Belə ki, siyasi ədəbiyyatda dövlətlərarası humanitar əməkdaşlığın tərifi, anlayışı, məzmunu və s. ilə bağlı yekdil fikir formalaşmamışdır. M.Lebedeva, P.Kennedi, A.Stalberq, C.Grey, V.Morozov və İ.Makarenko və digərləri dünya siyasətində uğur qazanmaq üçün hərbi və iqtisadi qüdrətlə bərabər, "humanitar xarici siyasət"in önəmini müdafiə edirlər[1]. Lakin bununla belə qeyd edilən tədqiqatçılar humanitar siyasətə dair fərqli baxışlara sahibdirlər. Alimlər arasında dövlətlərarası humanitar əlaqələrin obyekti haqqında ziddiyyətli fikirlər mövcuddur.

Beynəlxalq elmi məktəblər arasında humanitar əməkdaşlığa iki fərqli yanaşma xüsusilə qeyd edilməlidir - Qərb və Sovet-Rusiya. Sovet-Rusiya məktəbinin nümayəndələrindən İ.İ.Baranova[2], E.S.Qromoqlasova[3], A.S.Koshel[4], A.M.Kuznetsov[5] və b.

---

[1] Хрусталев, М.А. Анализ международных ситуаций и политическая экспертиза: очерки теории и методологии / М.А. Хрусталев, – М.: – НОФМО, – 2008. – 224 с.

[2] Баранова, И.И. Международное сотрудничество в продвижении русского языка и русской культуры за рубежом // М.: – Вопросы методики преподавания в вузе. – 2018. № 7 (26), – с. 8-16.

[3] Громогласова, Е.С. Гуманитарная составляющая внешней политики государства // М.: – Пути к миру и безопасности, Спецвыпуск: Гуманитарные вызовы, гуманитарное реагирование и защита гражданского населения в вооруженных конфликтах, – 2018. № 1(54), – с. 77-91.

[4] Кошель, А.С. Мягкая сила как инструмент гуманитарного сотрудничества государств на евразийском пространстве // Вестник московского университета, – 2015. №2, – с. 160-171.

[5] Кузнецов, А.М. Этническая политика и некоторые проблемы человеческого измерения безопасности // Материалы международного семинара "Этническая политика и невоенные аспекты безопасности", –

dövlətlərarası humanitar əməkşdaşlığın dar-məhdud sahələri – təhsil, elm, mədəniyyət və s. – üzrə tədqiqatlar aparmışdılar.

Amerika və Avropa məktəblərinin nümayənədlərindən H.Vilyams və M.Kevin isə "humanitar böhran və ya fəlakət"zamanı humanitar əməkdaşlığın imkanlarını tədqiq edirlər[6]. Digər tərəfdən, dövlətlərarası humanitar əməkdaşlığın məzmunu müasir siyasi proseslərin təsiri altında dəyişikliklərə məruz qalır. Bu da öz növbəsində dövlətlərarası humanitar əməkdaşlığa dair vahid elmi rəyin formalaşmasına mane olur.

Azərbaycan-Ukrayna humanitar münasibətlərinin praktik aspeklətləri ilə bağlı, humanitar münasibətlərin müəyyən sahələri üzrə bir sıra müəlliflərin işlərinə rast gəlinir. Azərbaycan alimlərindən H.Məmmədovun "Ukraynanın müasir tarixi"[7], İ.Musanın "Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti"[8], M.Manafova və b. "Beynəlxalq mədəni əlaqələr"[9], A.Quliyevin "Ukrayna-Azərbaycan münasibətləri: hüquq, siyasət, diplomatiya"[10] adlı əsərlərində iki dövlət arasında münasibətlərin praktik aspektləri işıqlanıdırlmışdır.

Qeyd edilən müəlliflərdən professor Habil Məmmədov elmi tədqiqatlarında Azərbaycan-Ukrayna münasibətlərinə geniş yer vermiş, xüsusən Sovet-Rusiya yanaşması çərçivəsində humanitar əməkdaşlıq imkanlarını nəzərdən keçirmişdir. Lakin bununla belə iki dövlət arasında humanitar əlaqələrə dair geniş məzmunlu, hərtərəfli və sistemli tədqiqatlara hələ də ehtiyac vardır.

---

Владивосток: – Издательский дом Дальневосточного федерального университета, – 2012, – с. 7-32.

[6] The ICRC and Humanitarian Policy in Contemporary World Politics // – Istanbul: Conference Papers International Studies Association, –2005. p. 1-26

[7] Məmmədov, H. Ukraynanın müasir tarixi / H. Məmmədov – Bakı: Elm və təhsil, – 2009. – 178 s.

[8] Musa, İ.M. Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. III hissə / İ.M.Musa. – Bakı: Bakı Universiteti, – 2011. – 776 s.

[9] Beynəlxalq mədəni əlaqələr / M. Manafova [və b.] – Bakı: Sabah, – 2008. – 652 s.

[10] Гулиев, А. Украино-Азербайджанские отношения: право, политика, дипломатия. том 1. / А. Гулиев – Харков: Факт. – 2014, – 656 с.

Yuxarıda qeyd edilənlərlə yanaşı dissertasiya tədqiqatının əhatə etdiyi ayrı-ayrı konkret məsələlərə dair araşdırmalarla bağlı belə bir qruplaşdırma da aparmaq olar:

• Qloballaşma, inteqrasiya, mədəni müxtəliflik və multikulturalizm proseslərinin humanitar əlaqələrin inkişafına təsiri (H.Hüseynova[11], R.Aslanova[12], N.Niftiyev[13], A.Balcı, R.Roland[14] və b.).

• Beynəlxalq və regional təşkilatlar çərçivəsində humanitar əməkdaşlıq (H.Xəlilova[15], İ.Novruzlu[16], A.Şahmuradov[17], V.Tağıbəyli[18], D. Belaşenko[19] və b.).

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müasir dövrdə Azərbaycanın Ukrayna ilə humanitar əlaqələri, predmetini isə iki dövlət arasında humanitar əməkdaşlığın istiqamətləri, sahələri, inkişaf dinamikasının və perspektivlərinin öyrənilməsi təşkil edir.

---

[11] Hüseynova, H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində / H. Hüseynova – Bakı: Hərbi nəşriyyat, – 1998, – 280 s.

[12] Aslanova, R. Qloballaşma və mədəni müxtəliflik / R. Aslanova – Bakı: Elm, – 2004, – 264 s.

[13] Niftiyev, N. Azərbaycanda birgəyaşayış və multikulturalizm / N. Niftiyev – Bakı, – 2015, – 408s.

[14] Balcı A., Roland R. Küreselleşme ve Kültür // Bilgi Dergisi, İstanbul: 2006, s.25-36.

[15] Xəlilova, H. GUAM çərçivəsində Azərbaycan-Ukrayna münasibətləri // Ankara: Uluslarasi türk dünyasi araştirmalari dergisi, – 2018. No1, – s. 62-71.

[16] Novruzlu, İ. Qara Dəniz İqtisadi Əmakdaşlıq Təşkilatı: özünü doğrultma cəhdləri və problemlər // Gənc tədqiqatçıların III Beynəlxalq Elmi Konfransının materialları. Bakı: Bakı Mühəndislik Universiteti, – 2019, – s. 391-395.

[17] Şahmuradov, A.Ş. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilati çərçivəsində Azərbaycanın Rusiya və Ukrayna ilə Əməkdaşlıq imkanları // Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, – 2013. No3, – s. 62-71.

[18] Tağıbəyli, V. GUÖAM. İqtisadi əməkdaşlıq təşkilatı, yoxsa hərbi anlayış // – Bakı: Heydər Əliyev məktəbi, İctimai-siyasi jurnal, – 2010. No10, – s. 59-61.

[19] Белащенко, Д.А. Деятельность ГУАМ на постсоветском пространстве: намерения, результаты, перспективы / Д.А.Белащенко, В.В.Толкачев, А.П.Шмелев, Н.Ф.Шоджонов // Контуры глобальных трансформаций: политика, экономика, право – 2021, Т. 14. № 3, – с. 84–105.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın əsas məqsədi müasir dövrdə Azərbaycan-Ukrayna humanitar əlaqələrini araşdırmaq, Qərb və Sovet yanaşmaları çərçivəsində mövcud sahələri təhlil etmək və əməkdaşlığın əsas mexanizmlərini müəyyən etməkdir. Dissertasiya işində müəyyən vəzifələr də qarşıya qoyulmuşdur. Fikrimizcə, həmin vəzifələrin şərti olaraq aşağıdakı üç istiqamət üzrə qruplaşdırılması məqsədəuyğundur:

Birincisi, müasir dövlətlərarası humanitar əməkdaşlığın nəzəri və təcrübi aspektlərinin öyrənilməsi baxımından:

- müasir dövlətlərarası münasibətlərdə "humanitar əməkdaşlıq" anlayışına dair nəzəri yanaşmaların mahiyyətinin açıqlanması və onların sistemləşdirilməsi;
- Azərbaycan və Ukraynanın humanitar əməkdaşlıq potensialının araşdırılması, mövcud resurslar və imkanların müəyyən edilməsi və müqayisəli təhlili.

İkincisi, Azərbaycan-Ukrayna humanitar əlaqələrinin hüquqi bazası və çoxtərəfli əməkdaşlıq mexanizmlərinin tədqiqi prizmasından:

- ikitərəfli əlaqələrin tarixi-siyasi əsasları və hüquqi bazasının araşdırılması;
- Azərbaycan və Ukraynanın regional-beynəlxalq humanitar əməkdaşlıq sistemlərində iştirakının formatlarını müəyyən etmək, müvafiq qurumlarda təmsil olunmanın perspektivlərinin müqayisəli təhlil üsulu ilə dəyərləndirilməsi;

Üçüncüsü, Azərbaycan-Ukrayna arasında humanitar əlaqələrin əsas istiqamətləri, sahələri və gələcək perspektivlərinin təhlili kontekstində:

- Sovet-Rusiya yanaşması çərçivəsində humanitar əməkdaşlığın sahələrinin ayrı-ayrılıqda dəyərləndirilməsi
- Qərb yanaşması müstəvisində humanitar əməkdaşlıq imkanlarının müəyyən edilməsi;
- Azərbaycan-Ukrayna münasibətlərin inkişaf perspektivlərinin proqnozlaşdırılması və müvafiq tövsiyələrin işlənib hazırlanması

**Tədqiqatın metodları.** Dissertasiya işinin əhatə etdiyi məsələlərin araşdırılması zamanı istifadə olunan tədqiqat üsulları ilə bağlı bunlar vurğulana bilər:

- Azərbaycan-Ukrayna humanitar əməkdaşlığının nəzəri və praktiki məsələlərinin elmi araşdırılması sistemli yanaşma və müqayisəli təhlil metodları ilə gerçəkləşdirilmişdir;
- Azərbaycan-Ukrayna münasibətlərin inkişaf perspektivlərinin proqnozlaşdırılması və müvafiq təkliflərin verilməsi məsələləri məntiqi-tənqidi dəyərləndirmə və polemika üsulları ilə araşdırılmışdır;
- dissertasiyanın elmi nəticələrinin ümumiləşdirilməsi isə problemlərə rasional-obyektiv yanaşma metodu ilə aparılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Müasir dünya siyasətində yaşanan çoxvektorlu siyasi proseslər beynəlxalq münasibətlər sistemini köklü şəkildə dəyişməkdədir. Yeni şəraiatdə siyasi prosesləri proqnozlaşdırmaq və buna müvafiq xarici siyasət strategiyası müəyyənləşdirmək xeyli mürəkkəbdir. Bu kontekstdə xarici siyasətdə yeni istiqamətlər axtarışında olan dövlətlər artıq yardımlaşmağa hazır olduğunu dünyaya nümayiş etdirməyə çalışırlar. Bu baxımdan humanitar əməkdaşlıq müasir dövrün xarici siyasət kursunun ən səmərəli vasitələrindən biri hesab olunur.

2. Dövlətlərarası humanitar əməkdaşlıq beynəlxalq münasibətlərin yetərincə öyrənilməyən sahələrindəndir. Dünya siyasətində nisbətən yeni termin olan "humanitar əməkdaşlıq" anlayışına dair elmi ədəbiyyatda tam fərqli yanaşmalar mövcuddur. Dövlətlərarası humanitar əlaqələrin çoxşaxəli fəaliyyət sahələrinə sahib olması bu istiqamətdə müxtəlif yanaşma və fikirlərin ortaya çıxmasına rəvac vermişdir.

3. "Humanitar əməkdaşlıq" anlayışına dair yanaşmaları ümumiləşdirib müvafiq təsnifat aparmaq mümkündür. Yeni təsnifatda humanitar əməkdaşlıq Qərb yanaşması çərçivəsində daha əhatəli məzmun üzrə, Sovet-Rusiya yanaşmasında isə konkret sahələr üzrə tədqiqata cəlb edilir. Qərb və Rusiya elmi

məktəblərində "humanitar əmədaşlıq" termininə dair köklü fikir ayrılıqları mövcuddur. Rusiya cəmiyyətində, eləcə də postsovet məkanında dar mənadə konkret sahələri əhatə edən "humanitar əmədaşlıq" termini, Qərbdə tamamilə başqa təbiətə malikdir.

4. Müasir dövrdə dövlətlərin humanitar əməkdaşlıqda iştirakı onların milli-strateji maraqları əsasında formalaşır. Hər bir dövlətin bu prosesdə iştirakından ötrü böyük potensiala, yəni çoxvektorlu əlaqələrə, geniş imkanlara və kifəyət qədər resurslara sahib olması vacibdir. Azərbaycan və Ukraynanın da ikitərəfli humanitar əməkdaşlığa qatılması müvafiq siyasi, iqtisadi, və mədəni imkanlarına - resurslarına əsaslanır.

5. Azərbaycan və Ukraynanın müxtəlif regionlarda yerləşməsinə baxmayaraq, xalqlar arasında tarixən bir sıra sahələr üzrə əlaqələr mövcud olmuşdur. XI əsrdən başlayaraq xalqlar arasında formalaşmış çoxəsrlik humanitar əməkdaşlıq ənənələri, XX əsrin əvvəllərində hər iki dövlətin rəsmi münasibətlərinin qurulmsında mühüm rol oynamışdı. Vaxtaşırı dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri zamanı iki dövlət arasında humanitar əməkdaşlığa dair sanballı hüquqi-siyasi baza formalaşmışdır. İki dövlət arasında həm qədim tarixi köklərə, həm də hərtərəfli hüquqi səciyyəyə malik olan humanitar əməkdaşlıq dövlətlər arasında əlaqələrin gələcək perpsektivi baxımından xüsusi əhəmiyyət kəsb edir.

6. Rəsmi Bakı və Kiyevin şəxələnidirlmiş, çoxvektorlu xarici siyasəti müasir humanitar çağrışlara uyğun strategiya müəyyənləşdirməyə imkan yaradır. Beynəlxalq mexanizmlər daxilində ikitərəfli və çoxtərəfli humanitar əməkdaşlıq formatlarında iştirak hər iki dövlət üçün xüsusi əhəmiyyət kəsb edir. Müstəqillikdən sonra Azərbaycan və Ukraynanın milli maraqlarına tam olaraq cavab verə biləcək nəticə yönümlü və faydalı təsisatlarla humanitar əməkdaşlıq təcrübəsi formalaşmaqdadır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində:

- yeni dünya nizami və dövlətlərin xarici siyasət strategiyası fonunda qlobal humanitar çağırışlar yeni hal və problem olaraq səciyyələndirilmişdir;

- müasir dövlətlərarası münasibətlərdə "humanitar əməkdaşlıq" anlayışına dair nəzəri yanaşmalar araşdırılmış və sistemləşdirilmişdir;
- "humanitar əməkdaşlıq" anlayışına dair Qərb (Avropa və Amerika) və Sovet-Rusiya yanaşmaları milli siyasətşünaslığımızda elmi dövriyyəyə ilk dəfə cəlb olunmuşdur;
- tədqiqat zamanı Azərbaycan və Ukraynanın humanitar əməkdaşlıq potensialı qruplaşdırılmış və siyasi, iqtisadi, mədəni resurslar müəyyənləşdirilmişdir;
- Azərbaycan və Ukraynanın regional-beynəlxalq mexanizmlər daxilində ikitərəfli və çoxtərəfli humanitar əməkdaşlıq formatları ayrı-ayrılıqda təhlil edilmişdir;
- hazırda beynəlxalq münasibətlər sistemində baş verən köklü dəyişiklərin və davam edən Rusiya-Ukrayna müharibəsinin dövlətlərimiz arasında münasibətlərin gələcək perspektivlərinə mümkün təsirləri dəyərləndirilmişdir;
- çoxəsrlik əməmkdaşlıq təcrübəsinə dayanan Azərbaycan və Ukrayna əlaqələrinin gələcək perpsektivinə dair təklif və tövsiyələr verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi bir çox aspektlərdən mühüm elmi-əməli əhəmiyyət kəsb edir. Belə ki, onun materiallarından və elmi nəticələrindən faydalanılması baxımından bunlar önə çəkilməlidir:

- tədqiqatda gəlinən qənaətlər bu problemə aid yeni-yeni elmi araşdırma istiqamətlərinin müəyyənləşdirilməsinə əsaslar verir;
- elmi araşdırmadan Azərbaycanda beynəlxalq münasibətlər və xarici siyasət problemlərinə dair dərsliklərin, tədris vəsaitləri və proqramlarının, monoqrafiyaların, elmi əsərlərin yazılmasında və s. istifadə oluna bilər;
- dissertasiya Azərbaycan xarici işlər və mədəniyyət nazirliklərinin, müvafiq diplomatik nümayəndəliklərin fəaliyyəti üçün də əhəmiyyət kəsb edir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyada irəli sürülmüş əsas

elmi müddəalar və nəticələr müəllifin Azərbaycanda və xaricdə dərc olunmuş, həmçinin müxtəlif elmi-praktik konfranslarda etdiyi məruzələrdə öz əksini tapmışdır.AAK-ın tövsiyə etdiyi elmi jurnallarda da nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Bakı Slavyan Universitetinin Diplomatiya və xarici siyasət kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, 6 paraqraf, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi 202584 işarədən ibarətdir. O cümlədən, tədqiqat işinin struktur bölmələrinin ayrılıqda həcmi aşağıdakı kimidir:

- Titul səhifəsi - 364 işarə;
- Mündəricat – 1474 işarə;
- Giriş – 19682 işarə;
- Dissertasiyanın əsas məzmunu – 168023 işarə, o cümlədən birinci fəsil 49362, ikinci fəsil 52915, üçüncü fəsil isə 65746 işarə;
- Nəticə - 13041 işarə.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, işlənmə dərəcəsi təhlil olunur, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar və elmi yeniliyi qeyd olunur, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, işin aprobasiyası və tətbiqi, yerinə yetirildiyi təşkilat, dissertasiyanın struktur bölmələrinin işarə ilə həcmi göstərilir.

Dissertasiya işinin **“Müasir dövlətlərarası humanitar əməkdaşlığın nəzəri və təcrübi aspektləri”** adlanan **birinci fəsli** iki paraqrafdan ibarətdir. **“Müasir dövlətlərarası münasibətlərdə “humanitar əməkdaşlıq” anlayışına dair nəzəri yanaşmalar”**a həsr olunmuş **birinci paraqrafda** müasir siyasi ədəbiyyatda

humanitar əməkdaşlığa dair elmi yanaşmalar nəzərdən keçirilib və bu zaman bir sıra məsələlər önə çəkilmişdir: a) müasir siyasi proseslərin beynəlxalq münasibətlər sisteminə, o cümlədən dövlətlərarası əlaqələrə göstərdiyi ciddi təsirlər; b) dövlətlərarası humanitar əməmkdaşlığa dair fərqli yanaşmalar; c) Qərb (Avropa-Amerika) və Sovet-Rusiya yanaşmaları çərçivəsində humanitar əməkdaşlığın təhlili və s.

Dövlətlərarası humanitar əlaqələr yeni olmaqla yanaşı, müasir inteqrasiya və qloballaşma şəraitində beynəlxalq sistemin çağırışlarına cavab verir. Bu baxımdan dövlətlərarası münasibətlərin praktik aspektlərinin təhlilindən öncə hökmən "humanitar əməkdaşlıq" anlayışına dair nəzəri baza öyrənilməlidir. Dəyişməkdə və yenilənməkdə olan müasir beynəlxalq münasibətlər sistemində yeni "humanitar əməkdaşlıq" anlayışına dair tamamilə yekdil fikir formalaşmamışdır. Bu baxımdan humanitar işbirliyi beynəlxalq münasibətlərin yetərincə öyrənilməyən sahələrindəndir. Humanitar əmədaşlığa dair xeyli fərqli baxışlar nəzərdən keçirilmiş və şərti olaraq onların Qərb (Avropa və Amerika) və Sovet-Rusiya yanaşması olaraq iki bölmədə təsnifatı aparılmışdır[20]. Təsnifata müvafiq olaraq müasir humanitar əməkdaşlığın bütün sahələri ümumiləşdirilmiş və nəticədə dövlətlərarası münasibətlərdə yeni yol xəritəsi müəyyən edilmişdir.

Yeni dünya düzənin formalaşması və sistemdaxili normal münasibəltərin qurulmasında humanitar əməkdaşlıq xüsusi rola sahibdir. O dünyada humanitar fəlakətlərin önlənməsinə və onların nəticələrinin aradan qaldırılmasına mühüm dəstək verir. Zaman keçdikcə xarici siyasətin humanitar istiqamətinin əhəmiyyəti daha da artır. Dövlətlərin müasir dünya siyasətində uğur qazanması üçün yalnız hərbi və iqtisadi qüdrəti kifayət etməyib, humanitar əməkdaşlığın gücləndirilməsi və genişlənməsi zərurətini ortaya çıxarır. "Xarici mədəni siyasət" və "mədəni diplomatiya"

[20] Əfəndiyeva, A.F. Azərbaycan-Ukrayna dövlətlərarası münasibətlərində humanitar əməkdaşlıq // - Bakı: Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, - 2021, - № 59, - s. 260-267.

terminlərinə baxışlar müxtəlif olub, onların eyniləşdirilməsi və ya fərqləndirilməsi ilə bağlı yekdil fikir formalaşmayıb. Xarici siyasətin humanitar məzmununu təkcə mədəniyyət məsələləri ilə məhdudlaşdırmaq düzgün deyil. Digər tərəfdən dövlətlərarası münasibətlərin və qarşılıqlı fəaliyyətdə humanitar əməkdaşlıq "yumşaq güc" olaraq da qəbul edilir[21].

Birinci fəslin **"Azərbaycan və Ukraynanın humanitar əməkdaşlıq potensialı: resurslar və imkanlar"** adlı **ikinci paraqrafında** müasir dövrdə humanitar əməkdaşlığı şərtləndirən bir sıra vacib və tutarlı səbəblər tədqiqa cəlb edilmişdir. Bu zaman Azərbaycan və Ukraynanın qarşılıqlı humanitar əməkşdalıqda iştirakı və beynəlxalq humanitar məkana inteqrasiyası üçün lazım olan bir sıra məsələlər önə çəkilmişdir. Azərbaycan və Ukraynanın humanitar əməkdaşlıq potensialı qruplaşdırılmış və 4 istiqamət üzrə təhlillər aparılmışdır:

a) İki dövlətin hərətəfli və güclü siyasi-hüquqi bazaya əsaslanan dövlət siyasəti səviyyəsində təsbit olunmuş humanitar əməkdaşlıq fəaliyyəti: Azərbaycan və Ukrayna ikitərfli və çoxtərəfli münasibətlərdə humanitar əməkdaşlığa geniş yer verməli, qlobal və regional problemlərin həllində beynəlxalq əməkdaşlıqda yaxından iştirak etməlidilər. Hər iki dövlətin humanitar əməkdaşlıqda iştirakını şərtləndirən bir sıra vacib amillər var. Dövlətlər humanitar əməkdaşlıqda iştirakı üçün lazımı resurs və imkanlara sahib olmalıdır. Bu zaman əsas məsələ isə qarşıya qoyulmuş məqsədə dövlət siyasəti səviyyəsində yanaşılmalı və atılacaq addımların ölkənin mövcud potensialı ilə uzlaşdırılmasıdır.

b) Geniş və hərətərəfli humanitar əməkdaşlığı reallaşdırmaq üçün hər iki dövlətin iqtisadi inkişaf göstəriciləri: Humanitar sahədə əməkdaşlıq üçün lazım olan resurslara, dövlətlərin iqtisadi inkişaf göstəriciləri daxildir. Burada Azərbaycan və Ukraynanın yüksək

---

[21] Эфендиева, А.Ф. Азербайджано-Украинские связи в гуманитарной сфере // - Elmi iş. Beynəxalq elmi jurnal. "Humanitar və ictimai elmlərin əsasları" mövzusunda I Respublika elmi konfransının materialları, - Bakı: - 2020, - s. 164-167.

iqtisadi inkişaf göstəriciləri əsas götürülməklə dövlətlərin xarici humanitar siyasətini reallaşdırması üçün yetərli maddi resurslarının mövcudluğu qənaətinə gəlinmişdir.

c) Humanitar əməkdaşlığın həyata keçirilməsində Azərbaycan və Ukraynanın geostrateji mövqeyinin rolu: Mühüm geostrateji mövqe, qitələrarası nəqliyyat qovşaqlarının və transmilli enerji layihələrinin mərkəzində yerləşmə kimi faktorlar iqtisadi-siyasi dvididentlərlə yanaşı, həm də xalqları yaxınlaşdıran "humanitar körpülər"dir. Bu baxımdan Ukrayna və Azərbaycan yetərincə önəmli göstəricilərə sahibdir.

d) Azərbaycan və Ukraynanın tarixən formalaşmış humanitar fəaliyyət təcrübəsi və mənəvi resurslarından istifadə imkanları: Burada Azərbaycan və Ukraynanın bir sıra spesfik göstəriciləri nəzərdən keçirilmişdir. Humanitar istiqamətli regional və beynəlxalq tədbirlərin təşkili təcrübəsi, mədəni irs və humanitar sərvətlər, mültikulturalizm və tolerantlıq kimi dəyərlər, təhsil, idman, incəsənət, turizm ilə sıx inteqrasiya və s. bu qəbildəndir. Digər tərəfdən hər iki dövlətin humanitar əməkdaşlıqda iştirak potensialının təhlili, onların qarşılıqlı müqayisəli təhlilini aparmaq imkan verir[22].

Dissertasiyanın iki paraqrafdan ibarət **ikinci fəsli "Azərbaycan-Ukrayna humanitar əlaqələrinin əsasları və çoxtərəfli əməkdaşlıq mexanizmləri"** adlanır. **"İkitərəfli əlaqələrin tarixi-siyasi əsasları və hüquqi bazası"** adlanan **birinci paraqrafda** aşağıdakı məsələlər nəzərdən keçirilmişdir: a) "tarixi-etnik yaxınlıq və bənzərlik" tezisi kontekstində Azərbaycan və Ukrayna xalqları arasında XI əsrdən bəri mövcud olan tarixi mədəni əlaqələr; b) hər iki dövlət arasında XX əsrin əvvəllərindən formalaşan siyasi-diplomatik münasibətlər; c) humanitar sahədə Azərbaycan-Ukrayna arasında hüquqi baza; ç) müxtəlif səviyyəli rəsmi və işgüzar səfərlərin humanitar əlaqələrin inkişafında rolu.

---

[22] Эфендиева, А.Ф. Основные направления международных отношений Азербайджана и Украины на современный период // - Ümummilli Lider Heydər Əliyevin 97-ci il dönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" XI Beynəlxalq elmi konfransın materialları, - Bakı: - 2020, – s. 86-87.

Müxtəlif regionlarda yerləşməsinə baxmayaraq, Azərbaycan və Ukrayna xalqları arasında tarixi etnik yaxınlıq və bənzərlik mövcuddur. Azərbaycanın postsovet məkanında qeyri-müsəlman dövlətlər içində Ukrayna ilə münasibətləri bu baxımdan unikaldır. Tarixən xalqlar arasında formalaşmış tarixi-etnik yaxınlıq və çoxəsrlik humanitar əməkdaşlıq XX əsrin əvvəllərində yeni yaranmış hər iki dövlətin qısa zaman kəsimində rəsmi münasibətlərinin formalaşmasını şərtləndirdi. Beləliklə, XX əsrin əvvəlində Azərbaycan-Ukrayna arasında ilk diplomatik münasibətlər qurulmuş oldu. XX əsrin sonunda baş verən yeni geosiyasi reallıq fonunda Sovet İttifaqının parçalanması, müstəqillik əldə etmiş Azərbaycan və Ukraynanın tez bir zamanda diplomatik münasibətləri bərpa etmələri **əlaqələrin gələcək inkişafında müsbət dinamikanın əsasını qoydu**[23]**.**

Vaxtaşırı dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri zamanı iki dövlət arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın istiqamətləri müəyyən edilmiş, hüquqi sənədlərdə öz təsbitini tapmışdır. Bu baxımdan Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Ukraynaya rəsmi səfəri çərçivəsində 22 may 2008-ci il tarixində "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə"nin imzalanması, 28 aprel 2011-ci il tarixində isə "Azərbaycan Respublikası və Ukrayna Prezidentlərinin strateji tərəfdaşlıq münasibətlərinin gələcək inkişafı barədə Birgə Bəyannamə"nin imzalanması ikitərəfli münasibətlərdə mühüm hadisədir[24]. Eyni zamanda təxminən 30 illik bir müddətdə Azərbaycan-Ukrayna arasında humanitar sahədə formalaşmış hüquqi baza və qarşılıqlı əlaqələr qənaətbəxş hesab oluna bilər. Zamanla hər iki dövlətin

---

[23] Эфендиева, А.Ф. Политико–правовая основа азербайджано-украинских гуманитарных связей // - Bakı: Bakı Avrasiya Universiteti, Sivilizasiya, - 2017, - cild 6, - № 3 (35), - s. 90-94.

[24] Эфендиева, А.Ф. Политические аспекты Азербайджано-Украинских гуманитарных связей // - Bakı: «Kaspi» Geosiyasi Araşdırmalar Mərkəzi, - 2019, - cild № 5 (53), - s. 69-74.

bütün arenalarda bir-birlərinə siyasi dəstək və humanitar yardım göstərməsi, mövcud problemlərə dair eyni mövqedən çıxış etməsi kimi hallar təqdirəlayiqdir. Digər tərəfdən humanitar istiqamətin bütün sahələri üzrə sanballı hüquqi baza və yüksək səviyyəli əməkdaşlıq mexanizmlərinin mövcudluğu əlaqələrin gələcək inkişafı baxımından da mühüm hal olaraq səciyyələndirməlidir.

İkinci fəslin **"Azərbaycan və Ukraynanın regional və beynəlxalq humanitar əməkdaşlıq sistemlərində iştirakı"**na həsr olunmuş **ikinci paraqrafında** Azərbaycan və Ukraynanın regional və beynəlxalq mexanizmlər daxilində ikitərəfli və çoxtərəfli humanitar əməkdaşlıq formatlarında iştirakı nəzərdən keçirilib. Azərbaycan və Ukraynanın beynəlxalq humanitar əməkdaşlıqda iştirakının başlıca fəaliyyət istiqamətləri üzrə aşağıdakı inteqrasiya birlikləri tədqiqata cəlb edilmişdir: a) Müstəqil Dövlətlər Birliyi (MDB) çərçivəsində inteqrasiya proseslərinin təhlili və humanitar əməkdaşlıq imkanları; b) GUAM daxilində əməkdaşlıq mexanizmləri və qurumun gələcək perpektivdə mövcudluğuna dair baxışlar; c) Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının regional humanitar əməkdaşlıqda yeri və rolu; ç) müxtəlif regional və beynəlxalq layihələr çərçivəsində rəsmi Bakı və Kiyevin humanitar əməkdaşlıqda iştirakının praktik aspekləri.

Azərbacyan və Ukraynanın çoxvektorlu xarici siyasəti regional və beynəlxalq mexanizmlər daxilində ikitərəfli və çoxtərəfli humanitar əməkdaşlıq formatlarını ortaya çıxarır. Bu baxımdan postsovet məkanında geniş tərkibli regional qurum olan Müstəqil Dövlətlər Birliyi (MDB) daxilində humanitar əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Humanitar əməkdaşlığa dair sanballı hüquqi baza və təcrübənin mövcud olması müsbət hal olsa da, təşkilat daxilində iştirakçı dövlətlərin maraqlarının uzalaşdırılması problemi qurumun işinə mənfi təsirini göstərməkdədir. Bu baxımdan Azərbaycan və Ukraynanın daha çox nəticə yönümlü, faydalı və milli maraqlarına tam olaraq cavab verə biləcək təsisatlarla əməkdaşlığa hər zaman ehtiyacı var.

GUAM çərçivəsində Azərbaycan-Ukrayna münasibətləri müxtəlif səpkili olmaqla yanaşı daha aktualdır. Qurum daxilində bir

sıra istiqamətlərdə, o cümlədən humanitar sahədə əməkdaşlıq da xüsusi çəkiyə sahibdir. Lakin GUAM-ın fəaliyyətində və xüsusilə qarşıya qoyulan məqsədlərin reallaşdırılması məsələsində müəyyən problemlər yaşanmaqdadır. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı humanitar istiqamətdə əsasən təhsil, elm və texnologiya sahəsində işbirliyinə xüsusi önəm verir. Üzv dövlətlər arasında yaşanan problemlər, onların daha da dərinləşməsi və s. kimi məsələlələrə baxmayaraq, təşkilat daxilində əməkdaşlıq imkanları 30 ildir davam etməkdədir. Avropanın və BMT-nin mövcud təsisatları ilə uzunmüddətli əlaqələrin olması, humanitar istiqamətli müxtəlif proqram və layihələrdə birgə iştirak Azərbaycan və Ukraynaya müvafiq sahədə təcrübə qazandırmaqla yanaşı, onların müsbət imicinin formalaşdırılmasında da mühüm rol oynayır.

Dissertasiya işinin **üçüncü fəsli "Azərbaycan-Ukrayna arasında humanitar əmədaşlıq təcrübəsi: istiqamətlər, sahələr və perspektivlər"** adlanır və iki paraqrafdan ibarətdir. **"Sovet-Rusiya yanaşması çərçivəsində humanitar əməkdaşlığın sahələri"** adlanan **birinci paraqrafda** əvvəlcə postsovet ölkələri üçün daha səciyyəvi sayılan Sovet-Rusiya yanaşması müstəvisində iki dövlət arasındakı humanitar münasibətləri nəzərdən keçirilmişdir. Sovet-Rusiya yanaşması dövlətlərarası münasibətlərdə təhsil, elm, mədəniyyət, incəsənət, turizm və s. kimi konkret sahələri əhatə edir[25]. Sadalanan sahələrin hər biri üzrə Azərbaycan-Ukrayna arasında kifayət qədər məzmunlu, geniş və əhatəli münasibətlər formalaşmışdır. Tədqiqatın tamlığı baxımından hər bir sahə üzrə iki dövlət arasında münasibətlər dərindən təhlil edilmişdir[26].

Xalqlar arasında dostluq münasibətlərinə dair XI-XII əsrin

---

[25] Эфендиева, А.Ф., Гасанова К.Х. Международное сотрудничество между Азербайджаном и Украиной в области спорта и туризма // - Ümummilli Lider Heydər Əliyevin 96-cı il dönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" X Beynəlxalq elmi konfransın materialları, - Bakı: - 2019, - s. 113-118.

[26] Эфендиева, А.Ф. Азербайджан и Украина в совместных научных исследованиях // - Sumqayıt: Sumqayıt Dövlət Universiteti. Elmi Xəbərlər. Sosial və humanitar elmlər bölməsi, - 2020, - cild 16, - № 2, - s. 49-54.

ədəbi nümunələri öz unikallığı ilə seçilir. Sovet hakimiyyəti illərində həm azərbaycanlıların Ukrayna, həm də ukraynalıların Azərbaycanın ali təhsil məktəblərində təhsil alması və çalışması təcrübəsi formalaşmışdır. Bu ənənə növbəti dövrlərdə təhsil sahəsində əməkdaşlığın inkişaf dinamikasına müsbət təsir göstərmişdir. Hazırda Ukrayna və Azərbaycan arasındakı əməkdaşlığın ən dinamik istiqamətlərindən biri təhsil sahəsi hesab olunur[27]. İkitərəfli humanitar münasibətlərdə Bakı Slavyan Universiteti xüsusi rol – körpü rolunu – oynamaqdadır. Ukraynada təhsil alan xarici tələbələrin sayına görə üçüncü yerdə azərbaycanlı tələblərin olması əlaqələrin yüksək inkişafının praktik göstəricisidir.

Azərbaycan-Ukrayna arasında tarixən formalaşmış mədəniyyət və incəsənət sahələrində əməkdaşlıq təcrübəsi növbəti dövrlərdə siyasi səviyyədə əlaqələrin daha möhkəm, dayanıqlı və stabil olmasına imkan yaratmışdır[28]. Hər iki dövlətin əlamətdar günlərinin, eləcə də qarşılıqlı münasibətlərdə qeydə alınmış tarixi anların qeyd edilməsi ənənəsi və dahi şəxsiyyətlərin xatirəsinin yaşadılması istiqamətində atılan addımlar Azərbaycan-Ukrayna arasında humanitar əməkdaşlığın daha da zənginləşməsinə xidmət edir[29]. Dövlətlərarası humanitar əməkdaşlığın inkişafında və milli mədəniyyətlərin bir-birinə yaxınlaşmasında Ukraynada və Azərbaycanda fəaliyyət göstərən müxtəlif diaspor təşkilatlarının fəaliyyəti də qənaətbəxş hesab oluna bilər[30]. Zamanla təşkilatların

---

[27] Efendiyeva A.F. Cooperation in the field of education of Azerbaijan with Ukraine Since 2000 // Theoretical and Applied Science.Generalization of scientific results, participated in International Scientific Practical Conference, - USA, Philadelphia: - 2017, - № 12 (56), - p. 112-119.

[28] Efendiyeva A.F. Azerbaijani-Ukrainian relation in the sphere of art in the era of globalization // - Київ: Київський Національний університет імені Тараса Шевченка. Інститут міжнародних відносин. Актуальні пролеми міжнародних відносин, - 2020, - Випуск 143, - с. 25-33.

[29] Эфендиева, А.Ф. Международное культурное сотрудничество Азербайджана и Украины и аспекты их урегулирования // - Bakı: Bakı Avrasiya Universiteti, Sivilizasiya, - 2019, - cild 8, - № 4 (44), - s. 89-101.

[30] Эфендиева, А.Ф. Азербайджанские и Украинские диаспорские организации // Ümummilli Lider Heydər Əliyevin 95-ci il dönümünə həsr

əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi və əlaqələrin daha operativ qurulması istiqamətində görülən işlər təqdirə layiqdir.

Dissertasiya işinin "**Qərb yanaşması müstəvisində humanitar əməkdaşlıq və Azərbaycan-Ukrayna münasibətlərinin inkişaf perspektivləri**" adlanan **sonuncu paraqrafında** humanitar əməkdaşlığa dair Qərb yanaşması çərçivəsində ikitərəfli münasibətlərin təhlili aparılmış, müasir beynəlxalq münasibətlər sisteminin formalaşmaqda olan yeni mərhələsində Azərbaycan-Ukrayna münasibətlərinin inkişaf perpektivləri tədqiqata cəlb edilmişdir. Azərbaycan və Ukrayna arasında Qərb yanaşması çərçivəsində humanitar əməkdaşlığa dair bir sıra istiqamətlərdə əməkdaşlıq həyata keçirilir. Bura Ermənistan-Azərbaycan münaqişəsi, eləcə də Rusiya-Ukrayna münaqişəsi ətrafında humanitar əməkdaşlıq, postmünaqişə dövründə humanitar fəaliyyət və fəlakət, böhran, fövqəladə vəziyyətlərdə humanitar yardımlaşma daxildir. Vaxtılə Ukrayna Ermənistan-Azərbaycan münaqişəsinin həllində regional və qlobal səviyyədə Azərbaycanı dəstəkləmiş və nizamlamada Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipinə qeyd-şərtsiz riayət edilməsinin vacib şərt olduğunu bəyan etmişdir. Vətən müharibəsində Ukrayna ilk başdan və açıq şəkildə Azərbaycanı dəstəkləyən ölkələrdən biri olmuşdur. Ukrayna rəhbərliyi hər zaman strateji müttəfiqi olan Azərbaycanın yanında olduqlarını və ərazi bütövlüyünü bərpa etməkdə olan rəsmi Bakıya sonadək dəstək verəcəklərini bəyan etmişdi. Azərbaycan Respublikası da geosiyasi reallığı və milli maraqlarını nəzərə alaraq, Rusiya-Ukrayna münaqişəsinin dinc yolla həllinin tərəfdarı olduğunu bəyan etmişdir. Eyni zamanda ikitərəfli strateji əməkdaşlığa sadiq qalaraq müharibənin ilk həftəsindən etibarən Ukraynaya bir neçə dəfə humanitar yardım göstərmişdir. Qərb yanaşması çərçivəsində humanitar münasibətlərin digər sahələri üzrə də Azərbaycan və Ukraynanın çoxtərəfli və ikitərəfli formatda əməkdaşlıq təcrübələri mövcuddur.

---

olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" IX Beynəlxalq elmi konfransın materialları, - Bakı: -2018, - s. 664-666.

Hazırda beynəlxalq münasibətlər sistemində baş verən köklü dəyişiklərin və davam edən Rusiya-Ukrayna müharibəsinin dövlətlərimiz arasında münasibətlərin gələcək perspektivlərinə, o cümlədən humanitar əməkdaşlığın inkişafına bir başa təsir imkanları mövcuddur. Birincisi, Azərbaycan-Ukrayna arasında ikitərfli və çoxtərəfli əməkdaşlıq formatının inkişafı üçün Rusiya-Ukrayna müharibəsi tezliklə sonlanmalı və rəsmi Bakı bu xüsusda əlindən gələni etməyə hazır olduğunu nümayiş etdirməlidir. Ukraynanın ərazi bütövlüyünün təmin edilməsi və regionda dostluq münasibətlərinin yenidən qurulması Azərbaycan-Ukrayna münasibətlərinin gələcəyi baxımından xüsusi əhəmiyyət kəsb edir. İkincisi, Azərbaycan və Ukrayna qarşılıqlı olaraq postmünaqişə dövründə müharibənin nəticələrinin aradan qaldırılmasında bir-birinə humanitar yardım göstərməli və starateji tərərfdaş kimi yeni quruculuq planlarında həm dövlət, həm də özəl sektor baxımından yaxından iştirak etməlidirlər. Üçüncüsü, Azərbaycan Respublikası beynəlxalq və regional mexanizmlər daxilində Ukrayna ilə əməkdaşlığı daha da möhkəmləndirməli və əməkdaşlığın müasir formalarından yararlanmalıdır. Dördüncüsü, dövlətlərimiz arasında humanitar əməkdaşlıq əlaqələrinin inkişafı üçün konkret sahələr üzrə uzunmüddətli planlar hazırlanmalı və yüksək səviyyədə icara olunmalıdır. Bu kontekstdə tələbə və yüksək ixtisaslı kadrların mübadiləsinin artırılması, şəhərlərarası ənənəvi dostluq münasibətlərinin inkişaf etdirilməsi və ictimai, siyasi xadimlərimizin və ədiblərimizin yubileylərinin qeyd edilməsi və s.tədbirlərin həyata keçirilməsi dövlətlərimiz və xalqlarımız bir-birinə daha möhkəm tellərlə bağlayacaq.

Dissertasiyanın «**Nəticə**» hissəsində əldə olunmuş əsas nəticələr sistemləşdirilmiş və ümumiləşdirilmiş, çıxarılan mühüm elmi-nəzəri müddəalar şərh edilmişdir. Bəşəriyyətin gələcəyi XXI əsrin reallıqlarını və yeni çağırışları ciddi şəkildə nəzərə almağı tələb edir. Qloballaşma, inteqrasiya kimi dinamik proseslərin yaratdığı yeni reallıqlar və problemlər hazırda çoxsaylı həlli vacib çağırışlarla yadda qalır. Yeni dünya nizamı, güclü iqtisadi potensial, misilsiz elmi-texniki tərəqqi imkanlarının regionlar arasında qeyri-bərabər

"bölgüsü" kimi ziddiyyətlər fonunda dövlətlərarası münasibətlərə yenidən baxılmalı və siyasi dialoqa diqqət artırılmalıdır. Ümumbəşəri prinsipləri daima rəhbər tutan Azərbaycan Respublikası da sivilizasiyalararası qarşıdurmaya alternativ olaraq humanitar əməkdaşlığa böyük önəm və üstünlük verir. Azərbaycan Respublikası çoxtərəfli diplomatiya ilə yanaşı milli maraqlara cavab verən ikitərəfli humanitar əlaqələr çərçivəsində də daha səmərəli əməkdaşlıq təcrübəsinə malikdir. Bu baxımdan fərqli regionlarda yerləşmələrinə baxmayaraq, Azərbaycan və Ukrayna arasında müasir dövrdə humanitar əlaqələr həm qarşılıqlı, həm də regional səviyyələrdə faydalı məqsədlərə xidmət edir. Mövcud problemlərə baxmayaraq, Azərbaycan və Ukrayna çoxəsrlik əməkdaşlıq təcrübəsinə əsaslanaraq, xaqlarımız və dövlətlərimiz arasında qurulan dərin, möhkəm və məzmunlu əməkdaşlıq imkanlarını gələcək də davam etdirilməlidir. Müasir dövrdə Azərbaycan-Ukrayna humanitar əlaqələrinin hüquqi bazası yeni beynəlxalq sistemə uyğun olaraq çevik və yaradıcı şəkildə təkmilləşdirilməlidir. İkitərəfli humanitar əməkdaşlığa dair birgə fəaliyyətin və təcrübənin rəsmi səviyyədə koordinasiyası qüvvətləndiriməlidir. Milli maraqlar və geosiyasi reallıqlar fonunda rəsmi Bakı və Kiyev Qərbin qabaqcıl həyat standartlarına, yüksək insan haqlarına və kollektiv təhlükəsizliyə cavab verən çoxətərfli əməkdaşlıq təsisatlarında yaxından iştiraka çalışmalıdır. Qurumlar daxilində ortaq dəyərlərin və strateji hədəflərin yaxınlaşması ikitərəfli münasibətlərə də öz müsbət təsiri göstərəcəkdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı çap işlərində öz əksini tapmışdır:**

1. Эфендиева, А.Ф. Политико–правовая основа азербайджано-украинских гуманитарных связей // - Bakı: Bakı Aviasiya Universiteti, Sivilizasiya, - 2017, - cild 6, - № 3 (35), - s. 90-94.

2. Efendiyeva A.F. Cooperation in the field of education of Azerbaijan with Ukraine Since 2000 // Theoretical and Applied Science.Generalization of scientific results, participated in

International Scientific Practical Conference, - USA, Philadelphia: - 2017, - № 12 (56), - p. 112-119.

3. Эфендиева, А.Ф. Азербайджанские и Украинские диаспорские организации // Ümummilli Lider Heydər Əliyevin 95-ci il dönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" IX Beynəlxalq elmi konfransın materialları, - Bakı: - 2018, - s. 664-666.

4. Эфендиева, А.Ф., Гасанова К.Х. Международное сотрудничество между Азербайджаном и Украиной в области спорта и туризма // - Ümummilli Lider Heydər Əliyevin 96-cı il dönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" X Beynəlxalq elmi konfransın materialları, - Bakı: - 2019, - s. 113-118.

5. Эфендиева, А.Ф. Политические аспекты Азербайджано-Украинских гуманитарных связей // - Bakı: «Kaspi» Geosiyasi Araşdırmalar Mərkəzi, - 2019, - cild № 5 (53), - s. 69-74.

6. Эфендиева, А.Ф. Международное культурное сотрудничество Азербайджана и Украины и аспекты их урегулирования // - Bakı: Bakı Avrasiya Universiteti, Sivilizasiya, - 2019, - cild 8, - № 4 (44), - s. 89-101.

7. Эфендиева, А.Ф. Азербайджан и Украина в совместных научных исследованиях // - Sumqayıt: Sumqayıt Dövlət Universiteti. Elmi Xəbərlər. Sosial və humanitar elmlər bölməsi, - 2020, - cild 16, - № 2, - s. 49-54.

8. Efendiyeva A.F. Azerbaijani-Ukrainian relation in the sphere of art in the era of globalization // - Київ: Київський Національний університет імені Тараса Шевченка. Інститут міжнародних відносин. Актуальні пролеми міжнародних відносин, - 2020, - Випуск 143, - с. 25-33.

9. Эфендиева, А.Ф. Основные направления международных отношений Азербайджана и Украины на современный период // - Ümummilli Lider Heydər Əliyevin 97-ci il dönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" XI Beynəlxalq elmi konfransın materialları, - Bakı: - 2020, – s. 86-87.

10. Эфендиева, А.Ф. Азербайджано-Украинские связи в гуманитарной сфере // - Elmi iş. Beynəxalq elmi jurnal. “Humanitar və ictimai elmlərin əsasları” mövzusunda I Respublika elmi konfransının materialları, - Bakı: - 2020, - s. 164-167.

11. Əfəndiyeva, A.F. Azərbaycan-Ukrayna dövlətlərarası münasibətlərində humanitar əməkdaşlıq // - Bakı: Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, - 2021, - № 59, - s. 260-267.

12. A Afandiyeva Mechanism of humanitarian cooperation of Azerbaijan-Ukrainian relations at the modern level Scientific collection İnter conf Copenhagen,Denmark 202 (202), 27-35 2024

13. AF Efendiyeva Prospects for Humanitarian Cooperation: Azerbaijan and Ukraine, at the Current Stage of International Relations Studia Orientalne 14 (4) (36), Poland 36 2025

14. AF Efendiyeva Azerbaijan and Ukraine: New Dynamics of Strategic Partnership.İnternational scientific conference. Social Sciences Under Global Crises March 4-5, 2026. Riga, the Republic of Latvia (Section-World politics)

Dissertasiyanın müdafiəsi 21 may  2026-cı il_tarixində saat __13:30__da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.
Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "17"aprel _2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.04.2026
Kağızın formatı: 60×84 1/16
Həcm: 40597
Tiraj: 30